# MÜASİR DÖVRDƏ AZƏRBAYCAN DÖVLƏT RESPUBLİKA ELMİ TİBB KİTABXANASININ FƏALİYYƏTİ

**Zeynalova Hicran Oqtay qızı**
**Kitabxanaşünaslıq kafedrasının baş laborantı**
**Hzeynalova@mail.ru**

*Məqalədə Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasının müasir vəziyyəti, fəaliyyəti araşdırılmış, inkişaf perspektivləri müəyyənləşdirilmişdir. Müasir informasiyalaşdırma cəmiyyətində kitabxana- informasiya proseslərinin tətbiqi ilə əlaqədar olaraq istifadə olunan informasiya xidmətinin növlərindən bəhs olunmuşdur.*

***Açar sözlər:*** *Tibb kitabxanası, avtomatlaşdırma-mexanikləşdirmə prosesləri, informasiyalaşdırma cəmiyyəti, kitabxana-informasiya prosesləri.*

Kitabxanaşünaslıq elminin banisi, prof. A.Xələfovun qeyd etdiyi kimi, "Müasir kitabxana bəşər elmi sərvətlərini toplayıb, qoruyub, onları insanların istifadəsinə verməklə elmin, mədəniyyətin, iqtisadiyyatın, texniki biliklərin, elmi nəşrlərin öyrənilməsi və tətbiqi üçün şərait yaradır. Beləliklə, elmi-texniki tərəqqiyə, elmi nəzəriyyələrin, nəşrlərin istehsalatda tətbiqi prosesinə kömək göstərir, elmlə istehsalat arasında, tədqiqlə tətbiq arasında vasitə kimi çıxış edir".

Kitabxanalar əhali arasında elmi biliklərin yayılmasında, oxucuların mənəvi estetik dünyagörüşünün formalaşmasında mühüm rol oynayan elmi-informasiya müəssisəsidir. Belə informasiya müəssisələrindən biri də Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasıdır.

Kitabxana Azərbaycan Respublikası Xalq Komissarlığı tərəfindən verilmiş 29 noyabr 1939-cu il qərarına əsasən təşkil edilmiş və 1940-cı ildən real fəaliyyətə başlamışdır. AzDRETK- nın ilkin fondu respublikamızın qabaqcıl həkim-alimlərinin verdiyi kitablar əsasında formalaşmışdır. 2008-ci ildə kitabxananın fondu milli və xarici dillərdə olan kitab, jurnal, avtoreferatlardan və s. ibarət olmaqla 472.494 nüsxə hesablanmışdır. Kitabxananın bir neçə fondu vardır: ümumi fondu, depozitar fond, arxiv fond, nadir nəşrlər fondu. Məzmununa görə əsas fond tibbi elmi fəaliyyətlə və tibbi təcrübə ilə məşğul olan, tibb sahəsində təhsil alan oxucular üçün nəzərdə tutulmuşdur.

Elmi Tibb Kitabxanasının çatışmayan ən böyük cəhətlərindən biri maliyyə problemidir. Belə ki, Az.DRETK-sına dövlət tərəfindən ildə yalnız bir dəfə vəsait ayrılır ki, bu da tələbatların tam ödənilməsini təmin etmir. Onu da qeyd edək ki, bu il kitabxana dövlət tərəfindən ayrılmış vəsait hesabına tibbə dair 42 adda jurnal almışdır. Xarici ölkələrə, o cümlədən Rusiyaya dair jurnallar kitabxananın büdcəsi hesabına alınsa da, yerli ədəbiyyatlar kitabxanaya hədiyyə kimi təqdim edilir. Təkcə 2009-cu ilin hesabatına görə kitabxanaya 2473 adda 952 nüsxə ədəbiyyatın hədiyyə olunması haqda məlumat daxil edilmişdir. Bunlar əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyindən, Milli Onkologiya Mərkəzindən, Azərbaycan Tibb Universitetindən, eləcə də Azərbaycanın elmi-tədqiqat institutları, görkəmli həkimlər, kafedralar tərəfindən bağışlanmışdır.





Əgər 2006-cı ildə Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasının fonduna 1497 nüsxə ədəbiyyat daxil olmuşdursa, 2007-ci ildə bu göstərici 470.119 nüsxə milli və xarici dillərdə olan kitab, jurnal, avtoreferatlardan ibarət olmuşdur. Daha dəqiq desək, 2007-cı ildə fonda 800 nüsxə kitab, 375 jurnal, 200 avtoreferat daxil edilmişdir. Bu barədə kəmiyyət göstəricilərini aşağıdakı cədvəldə daha aydın görmək olar.

Cədvəl 1. 2007-ci ildə kitabxanaya daxil olan ədəbiyyatın növünə görə göstəricilər

| Göstəricilər | Miqdarı |
|---|---|
| 1.Kitablar | 800 nüsxə |
| 2.Xüsusi növ nəşrlər və CD | 51 nüsxə |
| 3.Jurnallar | 375 nüsxə |
| Cəmi | 1226 nüsxə |

Dövri nəşrlərə abunəçilik "Qasid" firması tərəfindən həyata keçirilir. 2006-cı ildə kitabxana 44 adda dövri nəşrə abunə yazılmışdır. Daha dəqiq desək, həmin il kitabxana 5 qəzet və 39 adda jurnala abunə yazılmışdır. Bununla yanaşı, 339 adda 440 nüsxə ədəbiyyat isə kitabxanaya Azərbaycanın görkəmli alimləri, həkimləri tərəfindən hədiyyə kimi təqdim olunmuşdur. Respublika Elmi Tibb Kitabxanası fondunun səmərəli təchiz edilməsində bir sıra forma və üsullardan istifadə olunur ki, bunlardan ən mühümünü məcburi nüsxə sistemi təşkil edir.

Məcburi nüsxə dedikdə dövlət ərazisində çap edilən və hökumətin xüsusi qərarı əsasında mətbəə və nəşriyyatlar tərəfindən verilən çap əsərləri nəzərdə tutulur. Respublikamızda məcburi nüsxənin 2 növündən istifadə olunur: pullu məcburi nüsxə və pulsuz məcburi nüsxə. Bunlar ərazi əlamətindən asılı olaraq respublika və yerli hissələrə ayrılırlar. Bununla yanaşı idarə və məqsədli məcburi nüsxələr də vardır.

Respublika Elmi Tibb Kitabxanası 2006-cı ilə kimi nə pullu, nə də pulsuz məcburi nüsxə almamışdır. Baxmayaraq ki, bu məsələyə 1998-ci ildə "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununda geniş yer verilmişdir. Yalnız 2006-cı ildən başlayaraq kitabxana bu istiqamətdə müəyyən irəliləyişlər edir. Belə ki, 2006-cı ildə kitabxana 57 qəzet, 375 jurnal almışdırsa, 2007-ci ildə bu göstərici artaraq 112 qəzet, 528 nüsxə jurnal olmuşdur.

Hazırda Respublika Elmi Tibb Kitabxanasında 500.000 nüsxədən artıq sənəd əhatə olunmuşdur. Müasir tibb kitabxanası əsas təbliğat vasitəsi kimi minlərlə oxucunun "tibb sahəsində çalışan mütəxəssislərin elmi tədqiqat işçilərinin, tibb sahəsində təhsil alan tələbələrin və s." mühüm mütaliə mənbəsinə, zəngin bilik xəzinəsinə çevrilir. Məhz buna görə də tibb kitabxanası fondunun müasir şəraitdə tərkibcə sənəd-informasiya təminatı ən aktual, ən vacib məsələlərdən birini təşkil edir, oxucuların mənəvi zənginliyinə, elmi keyfiyyətlərinə, təkmilləşməsinə, siyasi görüşlərinin yüksəlməsinə, xarici və daxili siyasətin dərk edilməsinə mühüm təsir göstərir. Bu xarakterik xüsusiyyətlərin mövcudluğu Respublika Elmi Tibb Kitabxanasının, informasiya fondunun təşkili, tənzimlənməsi, idarə edilməsi və təkmilləşdirilməsi zəruriliyini irəli sürür.

Son illər Tibb kitabxanası bu istiqamətdə xeyli nailiyyətlər əldə etmişdir. Kitabxana oxucularının sorğularını və tələbatlarını nəzərə alaraq fondunun tərkibcə və quruluşca komplektləşdirilməsini həyata keçirir, tibb sahəsinə dair ədəbiyyatı geniş şəkildə komplektləşdirir. Bu xarakterik cəhətlər kitabxana fondunun quruluşca və tərkibcə ildən-ilə artımına və yeniləşməsinə səbəb olur. Belə ki, Tibb kitabxanasının fondunda əgər 2000-ci ildə tibb elminə dair 245.781 nüsxə ədəbiyyat qeydə alınmışdısa, artıq 2007-ci ildə bu göstərici 472.440 nüsxəyə qədər yüksəlmişdir. Bu yüksəlişi biz kitabxananın fondunda da müşahidə edə bilərik. Bu da bilavasitə kitabxananın fondunun planlı komplektləşdirilməsilə bağlı olmuşdur. Məlumdur ki, planlı komplektləşdirmə təkcə fondun bütünlükdə formalaşmasına deyil, eyni zamanda onun tərkib hissələrinin tənzimlənməsinə istinad edir. Hər bir komplektləşdirmə planı fondun tərkibcə sənəd-informasiyasının zənginləşməsinə əsaslanır.

"Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü maddəsində yazılır: "Kitabxanalar dövlət və qeyri-dövlət nəşriyyatları tərəfindən buraxılan profilinə uyğun çap məhsulları və digər informasiya daşıyıcılarını birinci növbədə almaq hüququna malikdir. Bu hüquq müvafiq icra hakimiyyəti orqanları tərəfindən müəyyənləşdirilmiş qaydada kitabxana kollektoru, kitab ticarəti müəssisələri, nəşriyyat orqanları, ayrı-ayrı şəxslərlə aparılan müvafiq ədəbiyyatlar, məcburi nüsəxələrin alınması, abunə, bağışlanma və vərəsəlik əsasında miras qalmış nəşrlərin verilməsi, habelə beynəlxalq və ölkədaxili kitab mübadiləsi yolu ilə təmin edilir " ( 3, s.12)

Azərbaycan Respublika Tibb Kitabxanasına məcburi nüsxələr kitab mağazalarından, abunə yazılışından, hədiyyə, kitab mübadiləsi və s. mənbələrdən daxil edilir. Kitabxana daha çox hədiyyə yolu ilə öz fondunu zənginləşdirir. Belə ki, 2010-cu ildə kitabxanaya abunə yolu ilə 37, beynəlxalq mübadilə yolu ilə isə 19 kitab daxil olmuşdursa, hədiyyə yolu ilə 86 jurnal verilmişdir.

Müasir dövrdə kitabxanalarda mədəni, siyasi, bədii və əxlaqi görüşlərin, habelə peşə, ixtisas, təhsil səviyyəsinin formalaşmasında mühüm vəzifələrdən





biri kimi böyük əhəmiyyət kəsb edir. Bu sahədə Tibb kitabxanasının rolu və təsir dairəsi xüsusilə nəzərə çarpır. Tibb Kitabxanası fondu bu sahəyə dair ən aktual ədəbiyyatı özündə əks etdirməklə oxucu dünyagörüşlərinin formalaşmasında, elmi biliklərə yiyələnməsində mühüm rol oynayır. Kitabxana əsas təbliğat vasitəsi kimi minlərlə oxucunun mühüm mütaliə mənbələrinə, zəngin bilik xəzinəsinə çevrilir. Bu da öz növbəsində oxucuların mənəvi zənginləşməsinə, elmi keyfiyyətlərinin təkmilləşməsinə, siyasi görüşlərinin yüksəlməsinə, xarici və daxili siyasətin dərk edilməsinə mühüm təsir göstərir. Bu xarakterik xüsusiyyətlər kitabxananın fondunun təşkili, quruluşca komplektləşdirilməsi, tənzimləşdirilməsi, idarə edilməsi və təkmilləşdirilməsi zəruriliyini irəli sürür.

Məlumdur ki, Respublika Elmi Tibb Kitabxanasının fondu məzmununa görə tibbi elmi fəaliyyətlə və tibbi təcrübə ilə məşğul olan, tibb sahəsində təhsil alan oxucular üçün nəzərdə tutulur. Bu baxımdan fond əsasən elmi və praktiki tibbi ədəbiyyatdan ibarətdir.

2008-ci ildə Respublika Elmi Tibb Kitabxanasının fonduna 472.494 nüsxə milli və xarici dillərdə olan ədəbiyyat daxil edilmişdir. Bu il həmçinin depozitar, arxiv və nadir nüsxələr fondunda olan ədəbiyyatın yoxlanılması, onlara talonların yazılması və inventar kitab üzrə yoxlanılması, prosesi davam etdirilmiş və ilin sonuna kimi başa çatdırılmışdır. Fondun yoxlanılması ilə əlaqədar olaraq şöbənin əməkdaşları talonların yazılması, inventar kitab üzrə yoxlanılması istiqamətlərində bir çox işlər görmüşlər.

2008-ci ilin hesabatına əsasən kitabxana fonduna 1080 nüsxə kitab, 540 nüsxə rus dilində jurnal, 583 nüsxə isə digər müxtəlif dillərdə ədəbiyyatlar, 111 nüsxə avtoreferat daxil edilmişdir.

Hazırda Tibb kitabxanasının fondunda müxtəlif dövrlərə aid öz məzmunu və informasiya daşıyıcılığı ilə fərqlənən qiymətli ədəbiyyat saxlanılır. Bu cür sənədlər özlərində daşıdıqları informasiyaya və yaranma üsullarına görə kitabxana işçiləri üçün böyük maraq kəsb edir. Belə sənədlərin mühafizəsi və bərpası kitabxananın qarşısında duran ən aktual problemlərdən biridir. Bu istiqamətdə kitabxanada müxtəlif üsullardan istifadə edilir. İlk öncə sənədlərin əsli və nəşrin orijinalının, daha sonra isə onun surətinin mühafizəsi həyata keçirilir.

Məhz buna görə də Respublika Elmi Tibb Kitabxanasının oxucu kontingentinə, onların sorğu və tələblərinə, bu tələblərin tam və dolğun ödənilməsinə üstünlük verilir. Bunun nəticəsidir ki, kitabxana ildə 5000-dən çox oxucu kontingentinə xidmət göstərir. Tibb Kitabxanasının oxucu kontingentini aşağıdakı kimi qruplaşdırmaq olar:

-Elmi işçilər;

-Həkimlər;

-Aspirantlar;

-Tələbələr;
-Orta tipli personal və başqaları.

Kitabxanaya müraciət eləyən hər bir mütəxəssis öz ixtisasına sərbəst yiyələnmək və eyni zamanda yaradıcı işləmək qabiliyyətinə malik olmalıdır.

1940-cı ildə əsası qoyulmuş AzDRETK-sı respublikada ən iri elmi sahəvi kitabxanalardan biri hesab olunur. Həmçinin fondunun zənginliyi ilə də seçilən kitabxanalardan biridir. Belə ki, 2009-cu ilin hesababatına əsasən Tibb kitabxanasının fondu 472.254 nüsxə milli və xarici dillərdə olan ədəbiyyatlardan ibarət olmuşdur. Bunlardan 866 nüsxə rus dilində, 190 nüsxə Azərbaycan dilində, 21 nüsxə ingilis dilində ədəbiyyat olmuşdursa, 521 nüsxə milli, 35 nüsxə isə xarici dillərdə olan jurnallar tibb kitabxanasının fondunu zənginləşdirmişdir. Kitabxanaya daxil olan ədəbiyyatlar növ əlamətinə görə aşağıdakı kimi qruplaşdırılır.

Cədvəl 3

2009-cu ildə AzDRETK-na daxil olan ədəbiyyatın növünə görə göstəricilər

| Göstəricilər | Miqdarı |
|---|---|
| 1. Kitablar və metodiki göstərişlər | 1083 nüsxə |
| 2. Xüsusi növ nəşrlər və CD | 8 nüsxə |
| 3. Jurnallar | 556 nüsxə |
| 4. Avtoreferatlar | 113 nüsxə |
| Cəmi: | 1633 nüsxə |

Bu dövrdə kitabxana 50 adda 500 nüsxə dövrü nəşrə abunə yazılmışdır. 72 adda 72 nüsxə ədəbiyyat fonda alınmışdır. 1001 adda 952 nüsxə ədəbiyyat isə kitabxana fonduna hədiyyə verilmişdir. Bunlardan 52 nüsxə metodiki vəsait, 113 nüsxə avtoreferat, 9 nüsxə isə kompakt disklərdir. Azərbaycan Səhiyyə Nazirliyinin 20 dekabr 2005-ci il aktına əsasən Azərbaycanın bir çox mərkəzi rayon xəstəxanalarının kitabxanalarına təmənnasız olaraq kitablar hədiyyə verilmişdir. Bu il ərzində 9712 nüsxə ədəbiyyat hədiyyə göndərilmişdir. Belə kitabxanalar içərisində tibbi elmi tədqiqat institutlarının, iri xəstəxana və klinikaların, eləcə də ŞMX və MRX-nın kitabxanaları vardır. Bu il komplektləşdirmə şöbəsinin işçiləri tərəfindən 260 nüsxə ədəbiyyat bərpa edilib fonda daxil edilmişdir.

Belə ki, 2006-cı ildə 468783 nüsxə sənəddən 24743 nüsxə kitab verilişi, 2008-ci ildə 474254 nüsxə sənəddən 26535 nüsxə kitab verilişi, 2010-cu ildə isə bu göstərici artaraq 476827 nüsxə sənəddən 29882 nüsxə kitab verilişi qeyd olunmuşdur. Beləliklə, kitabxananın fondu, eləcə də kitab verilişi 2000-ci ilin əvvəllərinə nəzərən əsaslı şəkildə artmışdır. Bunun başlıca səbəblərindən biri isə kitabxananın 2005-ci ilə kimi müxtəlif yerlərə köçürülməsi ilə bağlı olmuşdur.





2010-cu ildə Respublika Elmi Tibb Kitabxanasının fondu əvvəlki illərə nisbətən artaraq 476.827 olmuşdur. Belə ki, bu il kitabxananın fondunda əks olunan ədəbiyyatdan 1046 nüsxə kitab, 786 nüsxə rus dilində, 35 nüsxə isə başqa dillərdə olan jurnal, 188 nüsxə isə avtoreferat olmuşdur. Daha dəqiq kəmiyyət göstəriciləri üçün aşağıdakı cədvələ nəzər salaq.

Cədvəl 4. 2010-cu ildə kitabxanaya daxil olan ədəbiyyatın növünə görə göstəricilər

| Göstəricilər | Miqdarı |
|---|---|
| 1.Kitablar və metodiki göstərişlər | 1129 nüsxə |
| 2.Xüsusi növ nəşrlər və CD | 6 nüsxə |
| 3.Jurnallar | 1244 nüsxə |
| 4.Avtoreferatlar | 188 nüsxə |
| Cəmi: | 2573 nüsxə |

Həmçinin Tibb kitabxanası 2010-cu ildə 43 adda jurnala, 4 adda qəzetə abunə yazılmışdır, eləcə də fonda 100 adda 100 nüsxə ədəbiyyat alınmışdır. 2473 adda 952 nüsxə ədəbiyyat isə kitabxana fonduna hədiyyə verilmişdir. 2010-cu ildə də oxucu sifarişləri üzrə əsas fonddan 21.882 nüsxə ədəbiyyat verilmişdir. Bu ədəbiyyatlar içərisində aşağıdakılar vardır:
Monoqrafiyalar-6761 nüsxə
Elmi məcmuələr-3420 nüsxə
Jurnallar-11100 nüsxə
Avtoreferatlar- 128 nüsxə
Qəzetlər-473 nüsxə

Müasir dövrdə elmin və texniki tərəqqinin böyük vüsət alması, elmi tədqiqatların nəticələrinin cəmiyyət həyatına, praktikaya tətbiq edilməsi, texnologiyanın və texniki proseslərin sürətli inkişafı nəticəsində informasiya axınının artımı, köhnəlməsi və səpələnməsi hədsiz çoxalmış, bu informasiya axınının işlənməsi, istehsal edilməsi və onun tələb olunan istiqamətlərə yönəldilməsi insanların imkanları dairəsindən kənara çıxmışdır.

"İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda göstərilir: "İnformasiyalaşdırma – informasiya ehtiyatlarının formalaşması, təqdim edilməsi, istifadə olunması əsasında dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının, təşkilati-hüquqi və mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, vətəndaşların informasiya tələbatlarının və bu sahədəki hüquqlarının təmin edilməsinin optimal şəraitinin yaradılması üçün təşkilati, sosial-iqtisadi və elmi-texniki prosesdir."

Əlbəttə ki, müasir dövrdə informasiya xidmətlərindən internetin özünəməxsus yeri vardır. Eləcə də kitabxana sahəsində informasiyanın daha dolğun

və operativ həyata keçirilməsi üçün internetə tez-tez müraciət etmək lazım gəlir. Məhz belə bir şəraitdə Respublika Dövlət Elmi Tibb Kitabxanasının tarixində mühüm bir hadisəyə imza atılır. Belə ki, 2009-cu il 22 may tarixində kitabxananın yeni saytı və yeni bukleti işıq üzü görməyə başlayır. Saytla maraqlanan bütün oxucular, o cümlədən tibb işçiləri, həkimlər, ayrı-ayrı tibb müəssisələrində çalışanlar, tibb universitetinin tələbələri www.azdretk.az saytına daxil olmaqla tibb sahəsi ilə bağlı bütün sorğularına cavab tapmaq imkanı əldə edə bilərlər. Kitabxana üçün olduqca böyük əhəmiyyət kəsb edən bu işin tibb elmi ictimaiyyətinin nəzərinə çatdırılması üçün təqdimat mərasimi keçirilmişdir. Mərasimdə səhiyyə və kitabxana ictimaiyyətinin görkəmli nümayəndələri, elm adamları toplanmışdır. Qonaqlar arasında Topçubaşov adına Elmi Cərrahiyə Mərkəzinin direktoru, akademik B.A.Ağayev, Mədəniyyət və Turizm Nazirliyinin kitabxanalar üzrə mütəxəssisi Lətifə xanım Məmmədova ilə yanaşı BDU-nun Kitabxanaçılıq-İnformasiya fakültəsinin əməkdaşları da yaxından iştirak etmişdir. Onlar saytın yaranmasına öz münasibətlərini bildirməklə yanaşı gələcəkdə görüləcək işlərlə bağlı çox dəyərli məsləhətlər də vermişlər. Saytın təqdimat mərasimində Azərbaycan Respublika Elmi Tibb Kitabxanasının müasir vəziyyəti, kitabxana informasiya xidmətinin səviyyəsi, yaşadığımız informsiya cəmiyyətində tibb kitabxanalarının yeri və rolu, ən nəhayət elektron tibb kitabxanalarının yaradılması zərurəti haqqında maraqlı çıxışlar dinlənildi. Saytda kitabxananın yaranma tarixi, strukturu, iş profili ilə yanaşı tibbə dair dərc edilmiş kitab, jurnal və digər informasiya daşıyıcıları haqda ən son məlumatlar yerləşdirilmişdir.

İstərdik ki, İnformasiyalaşdırılmış cəmiyyətə keçid prosesində Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanası da yaxından iştirak etsin. Belə ki, başqa kitabxanalar kimi (BDU, AMEA, M.F.Axundov adına Milli kitabxanalar kimi) Tibb kitabxanasında kitabxana proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması işi sürətlə həyata keçirilsin. Azərbaycanda vahid avtomatlaşdırılmış kitabxana-informasiya sisteminin hələ də tətbiq olunmadığı və standart kataloqlaşdırma formatı mövcud olmadığı üçün kitabxananın fondunun elektron kataloqa daxil edilməsi istiqamətində müəyyən çətinliklər var. Gələcəkdə Rusiyanın "Biblioteka 5.0" Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi əsasında yeni AKİS-in yaranması, "Kitabxana axtarış portalı"nın yaranması, AKİS biblioqrafik- məlumat bazası əsasında UNİMARC və USMARC (beynəlxalq maşınla oxunan kataloq və kataloqlaşdırma) formatlarının yaradılması məqsədəuyğun olardı.

## ƏDƏBİYYAT

1. Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasının 2005-cu il üzrə hesabatı
2. Xələfov A. Kitabxanaşünaslığa giriş: Dərslik (3 his.-də).-H. 1-2.-B.,2001.-400 s.
3. Məmmədov M. Tibb ədəbiyyatının çeşidləri // Kitabxanaşünaslıq və biblioqrafiya.-2003.- №1.-s.79-83
4. Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasının 2007-2008-ci illər üzrə hesabatları
5. Pirəliyeva Y.U. Müasir dövrdə Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasında kitabxana-informasiya xidmətinin təşkilinin əsas aspektləri // Kitabxana.az.-2008.-№2.-s.16-18
6. Pirəliyeva Y.U. Tibb kitabxanaçıları yenə birlikdə // Kitabxana.az.-2008.-№2.-s.19-20
7. Azərbaycan Dövlət Respublika Elmi Tibb Kitabxanasının 2010-cu il üzrə hesabatı





**Деятельность Азербайджанской Государственной Республиканской научно-медицинской библиотеки в современном этапе**

**Зейналова Хиджран Октай к.**
**Старшый лаборант кафедры Библиотекаведение**
**H.Zeynalova@mail.ru**

В статие расматривается современное состаяние, деятельность, и Переспективы Азербайджанской Государственной Республиканского научно-медицинского библиотеки. Изучается современные формы информасионной обслуживание в условиях информационного обшества.

**The activities of the Azerbaijan State Republican Scientific Medical Library in the modern stags**

**Zeynalova Hidzhran Oktay K.**
**Senior laboratory assistant Bibliotekavedenie**
**N.Zeynalova @ mail.ru**

Input a word in the article Modern Condition of the activities and prospects of the Azerbaijan State Republican Scientific Medical Library. We study the modern forms informasionnoy service in the information Società.